# Azərbaycan Demokrat Firqəsi dünənin, bugünün və sabahın partiyasıdır

Hörmətli tədbir içtirakçıları! Möhtərəm professorlar, müəllimlər və tələbələr! Hörmətli Azərbaycan Qızlar Universitetinin rəhbərliyi! Azərbaycan və İran tarixində möhtəşəm izlərlə yadda qalan "21 Azər" hərəkatının 79-cu ildönümünü belə möhtəşəm tədbirlə qeyd etdiyinizə görə Sizlərin hər birinizə təşəkkürlərimi bildirirəm.

Yenilməz şəxsləri ilə tanınan bizim nəslin nümayəndələri ötən əsrin əvvəlindən bəri Cənubi Azərbaycanda elə bir inqilab, xalq hərəkatı olmayıb ki, qurbanlar verməsin, məşəqqətlərə məruz qalmasın, sürgünlər görməsin. Konkret olaraq, Səttarxanın, Şeyx Məhəmməd Xiyabaninin, "21 Azər"in, 1953 və 1979-cu illərin hərəkatlarını, eləcə də bu gün də mübarizələrdə verdiyimiz qurbanları yada salmaq kifayətdir. Mən əsası 1945-ci il sentyabrın 3-də yaradılan Azərbaycan Demokrat Firqəsinin sayca 7-ci sədriyəm. Pişəvəri kimi mənim də ixtisasım jurnalistdir. Lakin hər dəfə partiyanın keçdiyi yoldan danışanda ADF-nin digər sədrləri olmuş general Qulam Yəhyanın, Sadıq Badiqanın, Mirqasım Çeşmazərin, Əmirəli Lahrudinin, Valeh Quluzadənin adlarını ehtiramla yad edir, xatirələri önündə baş əyirəm. Mənim bütün həyatım firqə yolu ilə bağlıdır. Diplom işim "1905-1911-ci illərin İran inqilabı və Azərbaycan mətbuatı"na həsr olunmuşdur. Bakı Dövlət Universitetində mənə dərs deyən 3 müəllimin monoqrafiyasını tənqid etdiyimə görə qalmaqal yarandı. Diplom rəhbərim Şirməmməd Hüseynov təkbaşına bu müəllimlərlə polemikaya girişdi. Haqq-ədalət sonda qalib gəldi və mən 5-ə layiq görüldüm.

Təyinatımı doğulduğum Gəncə şəhərinə deyil, Neftçalaya aldım, Salyanda isə həm də məhəllə komitəsinin sədri kimi davam etdirdim. İndi də gördüyünüz kimi ADF-nin sədriyəm və bütün varlığımla firqəyə bağlıyam. 3 övladım var. Onlar da həmçinin. Böyük övladım Xanım Huşiməndinin də diplom işi “21 Azər hərəkatı və onun xüsusiyyətləri”nə həsr olunmuşdu. O da əla aldı. Lakin 3 il əvvəl rektor Ağarəhim Rəhimovun xeyirxahlığı və diqqəti olmasaydı yəqin ki, bir başqa məktəbi bitirəcəkdi. Burada unudulmayan yaxşılıq ifadəsi yada düşür. Elə bilirəm ki, çəkəcəyim misal digər insanlara da lazım gələcək. İş elə gətirdi ki, qızım Xanım birinci kursu əla qiymətlərlə bitirdi. Maddi vəsait olmadı ki, təhsilini davam etdirim. Aldığım cavablar mənfi olduğundan bir ilə yaxın evdə saxlamalı oldum. Əmin idim ki, biliyi ilə başqa bir instituta da daxil ola bilər. Sənədini geri alıb rektora təşəkkür bildirmək istədim. Bu zaman onun özü otağından çıxıb mənimlə görüşdü. Yanında bir professor da oturmuşdu. Səbəbini soruşdu, bildirdim ki, müzəffər ordunun məğlub olmasının başlıca səbəbi.

Ağarəhim müəllim təəssüflə başını buladı və bildirdi ki, bu cür istedadlı uşaqlar təhsil haqqını ödəyə bilmədikləri üçün kənarda qalır, amma biz isə istedadsızlarla da yol gedirik. Övladın sentyabrdan 1-dən 2-ci kursa başlayacaq, 50 faiz təhsil haqqını özüm ödəyəcəyəm.

Belə də oldu. Bax, yaxşılıq, insanlıq budur. Ağarəhim müəllim, bu söhbətdən 20 ildən çox vaxt keçir. Amma 4 uşaq anası hələ də sizdən böyük hörmətlə danışır…

“21 Azər” hərakatı da təməli xeyirxahlıqdan yoğrulan, qayəsində xalq üçün, millət üçün fədakarlıqları nəzərdə tutan bir ümumxalq hərəkatı idi.

1945-ci il sentyabrın 3-də yaradılan siyasi təşkilatın fəaliyyəti bu gün də İran xalqlarının, o cümlədən azərbaycanlıların milli-demokratik hərəkat tarixinin ən çox öyrənilən, fərqli mülahizələr doğuran təhqiqat predmetidir. Çünki, ADF-ni meydana gətirən siyasi, iqtisadi və sosial şərait İran daxilində yenə də mövcuddur. Buna görə də partiyanın keçdiyi yolun öyrənilməsi, analizi, strateji və taktiki fəaliyyətinin nəticələrinə düzgün qiymət verilməsi ölkənin digər müxalifət qüvvələri ilə birlikdə İranda və Cənubi Azərbaycanda həqiqi demokratik quruluşun bərqərar olması uğrunda mübarizənin yeni hərəkət xəttinin hazırlanması çox mühüm və aktualdır. Bu ondan irəli gəlir ki, 79 ildə təftişçiliyinə ara verilməyən ADF-nin Məramnamə və Nizamnaməsi elmiliyinə, təcrübədə özünü təsdiqlədiyinə görə, nəinki İran və Cənubi Azərbaycan, eləcə də bir çox Şərq ölkələri üçün model olaraq qalmaqdadır. Lakin bu heç də belə anlama gəlməyə əsas vermir ki, Firqə həmin sənədlərə doqma, ehkam kimi yanaşır. Təkliflərə, müzakirələrə, dövrün tələblərinə cavab verən təkmilləşdirmələrə yer saxlamır.

Bu proqram sənədlərinin təsir gücü onların həyatiliyindədir. Görkəmli ictimai-siyasi xadim, jurnalist, yazıçı S.C.Pişəvəri və silahdaşları həmin sənədlərin tərtibi zamanı bilavasitə iştirakçısı olduqları Məşrutə, Ş.M.Xiyabani, Cəngəlilər hərəkatlarının, Komminterinin, 53-lərin keçdikləri yolun təlqin etdiyi dərslərə tənqidi, yaradıcı nəzər salmışdılar. Nəticədə, bugünədək ona milli, dini, ideoloji, separatist damğaları vurmaq, başqa dövlətlər tərəfindən yaradılmasında ittihamlandırmaq cəhdləri faydasız qalmaqdadır. Məramnamənin "Ümumi siyasi məsələlər" bölməsinin ikinci bəndində deyilir: "Azərbaycan həm İran daxilində mədəni, iqtisadi, ticarət, dil və mədəniyyət cəhətdən yerli

muxtariyyət və öz həyatını istədiyi kimi qurmaq üçün geniş hüquqlar təhmil etmək Firqənin ən əsas vəzifələrindəndir".

Baxmayaraq bu dövrün digər partiyalarının da proqramlarında söz, fikir, mətbuat və insan hüquqlarına dair müddəalar yer almışdı, ADF sıralarına onlarla müqayisədə misli görünməyən bir axın nəzərə çarpırdı. Firqə yarandıqdan cəmi 10 gün sonra dövrün populyar, siyasi təşkilatlarından sayılan İran Xalq Partiyasının 60 min üzvü o təşkilatdan çıxaraq ADF-yə birləşdiklərini yazılı bəyan etdilər. Tudə rəhbərliyi bu prosesi sakitcə izləsə də, sonradan olaylar göstərdi ki, onlar bunu ADF-yə heç də bağışlamaq niyyətində deyillər. Qeyd edək ki, bu gün də Qarabağ müharibələri dövründə erməni separatçılarını müdafiə edən İran Xalq Partiyasının dəsti-xətti qətiyyətlə dəf edilməkdə və pislənməkdədir.

Azərbaycan Demokrat Firqəsi nəinki İranda, həm də Şərqdə qısa müddətdə ən böyük siyasi uğura imza atan partiyadır. Yaranması, təşkilatlanması, fəalları və mətbu orqanı olan "Azərbaycan" qəzetinin geniş izahat işləri aparması nəticəsində düz bir ay sonra Təbrizdə ilk qurultayını keçirdi. Artıq dekabrın 12-də "21 Azər" hərəkatını qələbəyə qovuşduran, Milli Hökumət quran ADF öz sıralarında 200 min üzvü birləşdirirdi. Bu hakimiyyətin bəşəri islahatları indiyədək İran xalqları üçün arzu olaraq qalmaqdadır.

Gəlin 79 il əvvəlin bu günlərinin mənzərəsinə diqqət yetirək. Milli Hökumətin nəzarətindəki ərazilərdə, baş şəhərimiz Təbrizdə həyat öz axarı ilə davam edirdi. Təbriz radiosu Azərbaycan dilində informasiyalarını yayır, verilişlərinə başlayarkən şair Etimadın, bəstəkar Cahangir Cahangirovun birgə bəstələdikləri Milli Hökumətimizin marşını səsləndirir, Milli Filarmoniyada, Milli Teatrda məşqlər gedir, yeni açılan Təbriz Dövlət Universitetində, şəhər və kənd məktəblərində, kitabxanalarda həyat öz məcrasına

düşürdü. Səhiyyə şəbəkələrində insanlara pulsuz xidmət göstərilir, kəndlilər onlara məxsus toraqlardan götürdükləri məhsullardan qış azuqəsi kimi istifadə edir, tikinti-abadlıq işləri vüsət alırdı. Fədailər və asayiş keşikçiləri tezliklə onları gözləyən xəyanətdən bixəbər xidməti borclarını yerinə yetirirdilər. Heç kimin ağlına gəlmirdi ki, Amerika və İngiltərənin himayə və hərtərəfli kömək etdiyi xain Pəhləvi xanədanının tezliklə minləri qanına qəltan edəcək. On minlərlə insan İranın ilan mələyən çöllərinə sürgünə göndəriləcək. Təəssüf ki, tezliklə bu dəhşətlər yaşanacaqdı.

Təəssüf ki, “21 Azər” cəmi bir il ömür sürdü. Yarandığı gündə - dekabrın 12-də tarixin şərəfli yaddaşına qovuşdu.

Həmin gün Arazın digər tayına ailə üzvləri ilə birgə pənah gətirən inqilab iştirakçılarının gümanına da gəlməzdi ki, bu, nəsillərin mühacir taleyinin başlanğıcıdır. Çoxları Culfanı, Bulqar çayını keçərkən, Heyran dağlarını aşarkən bir ömürlük mühacirətə qovuşacaqlarını hiss edirlərmiş kimi çevrilib sonuncu dəfə dogma elləri seyr edirdilər. Bu mərd, dəyanətli insanların məqsədi heç də yeni yurdda məskunlaşmaq deyildi. Hamı tezliklə geri dönəcəyinə, bir il əvvəl başlanan işlərin davam etdiriləcəyinə, İran daxilində muxtariyyətə malik Azərbaycanda bəşəri hüquq və azadlıqların bərpa ediləcəyinə əmin idi.

İndi o vaxtdan 79 il ötür. Tarix öz diqtəsini edib. Kəskin darağını inqilab iştirakçılarının sıralarına çəkib. “21 Azər” iştirakçılarının sağ qalanları barmaqla sayılan qədərdir. Onlar dünyasını dəyişərkən gözlərində Təbriz həsrəti, dillərində “21 Azər” olub. Bu sədaqətin sirlərini elə “21 Azər”də, onun təşkilatçısı və ilhamvericisi Azərbaycan Demokrat Firqəsinin qayəsində, mahiyyətində, İran tarixinin XX əsrin əvvəllərindən indiyədək baş verən proseslərində axtarmaq lazımdır. Ötən əsrdə “21 Azərə”dək İranda baş verən

hərəkatlar bizə məlumdur. Lakin o, sözün əsl mənasında fundamental, bənzərsiz bir siyasi hadisədir. İstər Səttarxan, Şeyx Məhəmməd Xiyabani, istərsə də, “22 Bəhmən” inqilabları mahiyyətinə və xalqa keyfiyyətcə bəxş etdiklərinə görə onunla müqayisəyə gəlməzdir.

İctimai qayəsinə görə bu hərəkatın miqyası daha böyükdür. Belə ki, Tənbəki üsyanından başlayaraq “22 Bəhmən”ə qədər baş verən inqilablar və xalq hərəkatları tamamilə siyasi xarakter daşıyıb, ancaq siyasi hakimiyyətin dəyişməsi ilə başa çatıb. Lakin Azərbaycan Demokrat Firqəsinin rəhbərlik etdiyi “21 Azər” hərəkatı və onun yaratdığı Milli Hökumət təkcə siyasi dəyişiklikləri ilə deyil, Azərbaycanın bütün ictimai, iqtisadi və mədəni sahələrdə apardığı köklü islahatları, dəyişiklikləri ilə yadda qalıb. Cəmi bir il hakimiyyətdə olan ADF-nin, Milli Hökumətin gördüyü işlər İran tarixində reallaşdırılanların 100 ilinə bərabərdir. Belə desək, “21 Azər”in alternativi elə “21 Azər”dir. Dediklərimiz 1324-cü ilin 12 şəhrivərində (3 dekabr 1945-ci il) ADF-nin yaradıcıları tərəfindən imzalanan Bəyannamənin dünyəviliyinə, bütün İran xalqlarının mənafeyi ilə səslənməsinə əyani sübutdur. Bu, amerikalı hüquqşünas Uilyam Duqlasın 1950-ci ildə yerli camaatın Milli Hökumət və onun baş naziri Seyid Cəfər Pişəvərinin xidmətləri kimi xartırladıqlarını qələmə alarkən tutduğu siyahıda da təsdiqini tapıb. Ən mühüm islahatlar əsasən 3 kateqoriyaya bölünüb:

1. **Siyasi islahatlar;**
2. **Mədəni islahatlar;**
3. **Siyasi-iqtisadi islahatlar.**

Bəli, 79 ildir ki, Bakıda, Azərbaycanın müxtəlif bölgələrində, Avropa ölkələrində və Amerikada, həmçinin İranda gizli də olsa “21 Azər”in ildönümləri qeyd olunur. Məlumat üçün bildirim ki,

dekabrın 12-də İsveçdən yayımlanacaq "21 Azər" həftəsinin bu dəfə də kifayət qədər dinləyicisi olacaq. İlkin veriliş Ulu Öndərimiz Heydər Əliyevin xatirəsinə məhəbbətimizi ifadə edəcək.

"Mühacirət" ifadəsi nə qədər üzüntülü olsa da, bu sözün əsl mənasında bacı və qardaşlarımızın qayğısı, doğma münasibətləri sayəsində əldə etdiklərimizi minnətdarlıqla dilə gətirməyə borcluyuq. Bu, dünyanın heç bir ölkəsinin mühacirət fonunda müqayisə edə bilməyəcəyi mütərəqqi nümunə, əyani misaldır.

79 il əvvəl yalnız silahı ilə ölkəmizə pənah gətirənlərin sıralarından 200 elmlər namizədi və doktorun,  minlərlə tanınmış şəxsiyyətin yetişməsi, 10 minə yaxın soydaşımızın orden, medal, fəxri adlarla təltif olunmaları, minlərə yeni mənzillərin verilməsi, digər bəşəri qayğılar yalnız və yalnız mahiyyətində insanpərvərlik, humanizm hökm sürən xalqın əhatəsində mümkün ola bilər. Məhz buna görə də bizlər də Azərbaycan Respublikasının uğurlarını öz nailiyyətlərimiz sayır, fəxr edir, yolunda hər cür fədakarlığa hazır olduğumuzu əməli nümunələrimizlə sübuta yetiririk. 20 Yanvar mücadiləsi, Qarabağ müharibələri, Vətən yolunda şəhadət, yüzlərlə təltiflər, müstəqilliyimizin möhkəmlənməsi üçün digər nümunələr Vətən sözünün bizim üçün hər şeydən əziz olduğunu göstərir: Həm o tayda, həm bu tayda.

Nəsillər dəyişsə də yolumuz, amalımız dəyişməzdir. Bu, üçbəndli şeirdə ifadəsini tapdığı kimi:

**On illərdir yol gəlirəm,**

**Atam Azər, özüm Azər.**

**Mən əbədi bir məşələm,**

**Təşnəm Günəşə bərabər.**

**...**

**Yora bilməz yollar məni,**

**Qəlbim tükənməz atəşli.**

**Xalqım daim qeyd edəcək Müqəddəs "21 Azər"i.**

**Qoy kimsə də düşünməsin,**

**Yaşayırıq bir şam ömrü.**

**Zirvələrin bəzəyidir,**

**Bayrağı “21 Azər”in.**

**Rəhim Hüseynzadə,**

**Azərbaycan Demokrat Firqəsinin sədri,**

**Azərbaycanın əməkdar jurnalisti**